
2
2021
İSSN-0207-4710
GÖYƏRÇİN

RAFİQ YUSİFOĞLU

# TƏZƏ TARİX YAZIRIQ



Ali baş komandanın
Sözləri deyil hədər:
Bizi qorxuda bilməz
Nə bir təhdid, nə hədə!

İşimiz haqq işidir,
Bizə yaraşır zəfər!
Güc bizdə, ağıl bizdə,
Xalq müdrik, el müzəffər!

Fürsət düşsə, zəhərli
Böcəyə dönər yağı!
Göydə şahin görəndə
Cücəyə dönər yağı!

Silahlar başlayanda
Şimşək kimi çaxmağa.
Deşik gəzir dığalar
Başlarını soxmağa...

Göz çək Mingəçevirdən,
Basa bilməz yurdu su!
Ayıq-sayıq dayanıb
Azərbaycan ordusu...

Düşmən lərzəyə gəlir
İgidlərin səsindən.
Çaqqal-çuqqal qurtulmaz
Aslanlar pəncəsindən!

Azmanlar diyarında
Qorxaq düşmən kiçilib.
Haqq, ədalət, mərhəmət
Boyumuza biçilib...

İnsanlıqmı gözləyək
Körpələrə qıyandan?
Xəbəri yox yağının
İçimdəki qiyamdan?!

Lovğalanan düşmənin
Olubdur dili gödək.
Bəylər, xanlar yurdunda
Nə gəzir gədə-güdə?

Qiyamətə qalmadı
Xocalının qisası...
Qalibiyyət bizimdir,
Budur sözün qısası...

Xudafərin oyanıb
Elə bil daş yuxudan...
Dost sevinir, yağılar
Tir-tir əsir qorxudan...

Bayrağıma diz çökən
Düşmənə diz çökdürür.
Kəlbəcərə, Şuşaya
Zəfər yolu çəkdirir...

Əsən həsrət yelləri
Təzə xəbər gətirir.
Boylanıb Qarabağa
Zəngəzur köks ötürür...

Yalnız ər oğlu ərlər
Murada çata bilər.
Bizim qabağımızda
Kim at oynada bilər?

Əmr elə, komandanım,
Biz hamımız hazırıq!
Qədim diyarımızda
Təzə tarix yazırıq!







# TANRI QORUSUN TÜRKÜ

Ulduzumuz, ayımız,
Göydə bir sayrışanda,
Qələbə sevincimiz
Kükrəyəndə, daşanda,
Dilində haqqın adı
Düşmənlə vuruşanda
Bilərmi soyuq, bürkü? -
Tanrı qorusun türkü!

Qəlbində iman nuru,
O, gələndə qaçar şər, -
Qədəm basdığı yerdə
Ab-hava, ruh dəyişər,
Namərdliklə işi yox,
Haqq uğrunda döyüşər,
O, bilməz qorxu-hürkü, -
Tanrı qorusun türkü!

Dosta qapısı açıq,
Düşməni it tək qovar,
Xalqına xor baxanın
Bəbəklərini ovar,
Din-iman sahibidi,
Göz üstündə yeri var
Ona dostdusa hər kim, -
Tanrı qorusun türkü!

Bayrağımız yellənir
Uca Morov dağında,
Gözün aydın, ulu yurd,
Qələbəmiz yaxında!
İgid oğulların var,
Aslanlar qabağında
Neyləyər çaqqal, tülkü? -
Tanrı qorusun türkü!

Qardaşlıq göylərində
Yellənir qoşa bayraq,
Kim bizə bata bilər,
Yolumuz, yönümüz haqq?
Eyni ürək, eyni qan,
Eyni millət, eyni xalq,
Eyni dil, eyni türkü, -
Tanrı qorusun türkü!



INV. №

# KİÇİK MARAL VƏ ONU YEMƏK İSTƏYƏN YÜZ ƏLLİ TİMSAH

*(İndoneziya nağılı)*

Bir dəfə maralcığaz böyük bir çayın yaxınlığındakı hündür bir yerdə uzanıb dincəlmək istədi. O, elə təzəcə yuxuya getmişdi ki, güclü yağış başladı.

Yağış elə yağır, elə yağırdı ki, elə bil göydən yerə şəlalə axırdı. Çay daşdı və tezliklə ətrafdakı çöl-çəmən onun suyunun altında qaldı. Yağış güclədikcə sel güclənir və onun qorxunc səsi vahimə yaradırdı. Yuxudan oyanan maralcığaz daşan çaya baxıb, çox qorxdu. Tullanıb qaçmağa bir quru yer də yox idi, hər tərəf suyun içində idi. Ağaca çıxa bilməyən maralcığazın dayanıb gözləməkdən başqa çarəsi yox idi. Timsahların qorxusundan üzməyə də qorxurdu. Elə bu zaman suyun üzündə timsah başları görünməyə başladı. Ən qoca timsah dilləndi:

-Aha, axır ki, səninlə görüşmək mənə qismət oldu. Tez yanıma gəl. İndi heç hara qaçıb gizlənə bilməzsən. Bilirəm ki, ətin dərdlərin dərmanıdır. İndi mən səni parçalayıb, timsahları sənin dadlı ətinə qonaq eləyəcəm.

Balaca maral başa düşdü ki, timsahların əlindən canını qurtara bilməyəcək. Ancaq ümidini itirmədi. Var səsi ilə qışqırıb timsahdan soruşdu:

-De görüm bu sirri sənə kim açdı? Sən hardan bildin ki, mənim ətimdən dərman hazırlamaq olar? Görürsən ki, mən çox balacayam, ətimdən kimə nə düşəcək? Əgər məndən dərman hazırlamaq istəyirsinizsə, bu, başqa məsələ. Gərək hamınız birdən məni yeməyə başlayasınız. Deyin görüm siz neçə nəfərsiniz?



-Səksən nəfər.

-Yox, bu azdı. Ölüm, ölümdü. Mənim üçün bunun nə fərqi var? Ancaq dərmanın çoxluğu hamınızı xəstələndirə bilər. Ətim sizə fayda versin deyə məni 80 yox, 150 timsah birdən yeməlidi.

Uzun çək-çevirdən sonra timsah balaca maralın sözlərinə inandı. Otuz timsah maralın keşiyini çəkdi. Əllisi isə yeni timsahları tapıb bura gətirmək üçün getdilər.

Timsahlar üzüb gəldilər. Qoca timsah dedi:

-Hə, maralcığaz, indi biz yüz əlli timsah olduq.

Maral hiyləgərcəsinə dedi:

-Çox gözəl. Ancaq yaxşı-yaxşı sayın. Bircə timsah artıq, ya əskik olsa, hamınız xəstələnə bilərsiniz.

Qoca timsah dedi:

-Mən diqqətlə saymışam. Hamımız bir yerdə 150 timsahıq.

Maralcığaz onun ürəyinə şübhə toxumu saldı:

-Buna əminsinizmi? Bəlkə bir də sayasınız.

Timsahlar tərəddüd elədilər. Düz sayacaqlarına əmin olmadıqlarından bu işi yeməyə hazırlaşdıqları balaca marala tapşırdılar.

Timsahlar cərgəyə düzüldülər. Maralcığaz onların birinin üstündən o birinin üstünə tullana-tullana saymağa başladı:

-Bir, iki, üç, dörd, ...on, ...iyirmi, ...əlli, ...altmış, ...yüz, ...yüz iyirmi, yüz əlli!

Hiyləsi baş tutan maral axırıncı timsahın belindən sahilə sıçrayıb qaçmağa başladı.

Aldadıldığını başa düşən qoca timsah onu nə qədər dilə tutmaq istədisə, bir şey alınmadı. Maralcığaz timsahları lağa qoya-qoya var gücü ilə qaçdı...

O qədər qaçdı, qaçdı ki, lap yorulub əldən düşdü. Gözəl bir ağacın sakit, sərin kölgəsində uzanıb dincəlməyə başladı. İndi onun heç kimdən, heç nədən qorxusu yox idi...



*Tərcümə edəni: R.Y.Əliyev*